UOT 621.3.052.394

**MƏMMƏDOVA G.V.**

*Azərbaycan Texniki Universiteti*

# RABİTƏ SİSTEMİNDƏ RESİRSLARIN SƏMƏRƏLİ İSTİFADƏSİNİN PLANLAŞDIRILMASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Rabitə sistemimində resurslarının səmərəli istifadəsinin təşkili, planlaşdırılması, təhlili və qiymətləndirilməsi aşağıdakı metodoloji prinsiplərə əsaslanmalıdır:

– **Elmi yanaşma.** Rabitə sistemi sahəsində elmi-texniki tərəqqinin nailiyyətləri nəzərə alınmaqla, resursların səmərəli istifadəinin planlaşdırılması, təşkili və idarə edilməsin də obyektiv iqtisadi qanunların tələbləri nəzərə alınmalıdır. Rabitə sahəsində əmək resursların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsi ilə əlaqədar tədbirlərin planlaşdırılmasında obyektiv iqtisadi qanunların tələblərinin nəzərə alınması zəruri hesab edilir.

– **Sistem yanaşma**. Rabitə sistemlərinə va-

hid bir kibernetik sistem kimi baxılmalıdır. Belə ki, bu tam sistemin bütün elementlərinin qarşılıqlı əlaqələri və təsiri nəzərə alınmalıdır. Rabitə sisteminin bütün bölmələrinin qarşılıqlı əlaqələrinin məqsədəuyğun tənzimlənməsi xüsusi əhəmiyyətə malikdir. Belə ki, idarə olunan rabitə sisteminin hər hansı bir elementinə göstərilən təsir, onun bütün digər elementlərinə müxtəlif dərəcədə keçmiş olur. Digər tərəfdən rabitə sisteminin göstəriciləri, onun ayrı-ayrı bölmələrinin göstəricilərindən fərqlidir. Bununla yanaşı qeyd etmək lazımdır ki, bütövlükdə rabitə sisteminin hərtərəfli fəaliyyətinin səmərəliliyi, onun ayrı-ayrı bölmələrinin işinin səmərəliliyindən asılıdır.

- **Kompleks yanaşma.** Rabitə sistemində resursların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsi məsələlərinin həllində texniki-texnoloji, ətraf mühitin qorunması, təşkilati, ideya-tərbiyəvi, psixoloji, fizioloji, sosial və iqtisadi amillər kompleks halında nəzərə alınmalıdır.
- **Optimallıq.** Rabitə sistemində və onun bölmələrində əmək resursların istifadəsinin plan-iqtisad, təşkilati və idarəetmə məsələlərinin çoxvariantlı olduğunu nəzərə alaraq, həmin variantlardan qəbul edilmiş meyara (xərclərin minimum, ümumi mənfəətin maksimum olması şərti) nəzərən ən yaxşısının (optimal variantın) seçilməsi tələb olunur.
- **Səmərəlilik.** Rabitə sistemində resursların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsi məsələlərin həlli ilə əlaqədar planlaşdırılacaq tədbirlər iqtisadi cəhətdən səmərəli olmalıdır. Odur ki, tətbiq olunacaq tədbirlərin iqtisadi səmərəliliyi qabaqcadan müəyyən edilməlidir.
- **Ekoloji tarazlıq.** Rabitə xidmətlərinin ən yeni texnologiya əsasında təşkili. Zavodlarının rabitə xidmətində istifadə olunan avtonəqliyyat vasitələrinin maye-qaz yanacağına keçirməklə ekoloji taralıq təmin edilir.
- **Qənaətçilik.** Rabitə sisteminin sərəncamında olan bütün resurslardan tam səmərəli istifadə olunmalı, həmçinin təbii, material-texniki, müxtəlif növ enerji, əmək və maliyyə resurslarının səmərəli istifadəsinin cari və strateji biznes-planı işlənib hazırlanmalıdır. Resursların səmərəli istifadəsinin cari və strateji biznes-planı əməli-təqvim tədbirlər proqramı-qrafiki üzrə reallaşdırılmalıdır. Bu əməli-təqvim tədbirlər proqramının mərkəzində qənaət rejiminin mənfəətlilik meyarı ilə tətbiqi durur.
- **Sahə və ərazi idarəetmənin məqsədəuyğun əlaqələndirilməsi.** Məlum olduğu kimi xalq təsərrüfatı sahələri nazirliklər, ərazillər isə icra hakimiyyətləri və onların müvafiq orqanları vasitəsilə idarə olunur. Ərazilləri idarə edən icra hakimiyyəti orqanlarının tabeliyində olan təsərrüfatlar eyni zamanda bu və ya digər nazirliyin tabeliyində olduqlarından, onların işinin əlaqələndirilməsinin obyektiv zəruriliyi ortaya çıxır. Beləliklə, rabitə sistemində resursların səmərəli istifadəsinin planlaşdırılması və idarə edilməsində sahə və ərazi amillərinin əlaqələndirilməsi tələb olunur.
- **Maddi və mənəvi həvəsləndirmə.** Rabitə sistemində resursların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsində kollektivin maddi və mənəvi maraqlarının stimullaşdırılması təmin edilməlidir. Resursların səmərəli istifadəsinə cəlb edilmiş əməkçillərin maddi cəhətdən həvəsləndirilməsi, əmək haqqı forma və sistemlərinin düzgün seçilməsi, əmək haqqının tarif sisteminin təkmilləşdirilməsi, habelə, mükafatlandırma sisteminin geniş tətbiqi ilə təmin edilir. Mənəvi həvəsləndirmə isə qabaqcıl əməkçillərin orden və medallarlla təltif edilməsi, habelə, fəxri adların verilməsi, adlarının və şəkillərinin şərəf lövhəsində və müəssisənin şərəf kitabına daxil edilməsi və s. ilə həyata keçirilir.
- **Şəxsi, kollektiv və dövlət (ümumxalq) mənafelərinin düzgün əlaqələndirilməsi.** Rabitə sistemində resursların qorunması, mənimsənilməsi və onların istifadəsinin səmərəliliyinin yüksəldilməsi ilə əlaqədar şəxsi, kollektiv və ümumxalq (dövlət) mənafeləri düzgün əlaqələndirilməli, uzlaşdırılmalıdır. Qeyd etmək lazımdır ki, burada ümumxalq (dövlət) mənafeyi başlıca meyar kimi qəbul edilməlidir.



Ekologiya və su təsərrüfatı jurnalı, №3, iyun, 2023- ci il

- **Təkbaşına rəhbərlik və əməkçillərin hər birinin resursların qorunması, mənimsənilməsi və idarə edilməsində iştirakının təmin edilməsi.** Rabitə sistemində resursların qorunması, onların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsi istiqamətində tədbirlərin hazırlanması və həyata keçirilməsində vahid-təkbaşına rəhbərliklə yanaşı, əməkçillərin hər birinin fəal iştirakı təmin edilməlidir.
- **Nəzarətin təşkili və icranın yoxlanılması.** Rabitə sistemində resursların qorunması, onların istifadəsinin iqtisadi və ekoloji səmərəliliyinin yüksəldilməsi tədbirlərinin həyata keçirilməsinə nəzarətin təşkili və icranın yoxlanılması zəruri hesab edilir, resursların qorunması və səmərəli istifadə edilməsi ilə əlaqədar xüsusi komissiya yaradılır. Komissiyanın topladığı materiallar əsasında Rabitə sistemində resursların qorunması və istifadə edilməsinin səmərəliliyinin yüksəldilməsi ilə əlaqədar kompleks tədbirlər planı işlənib hazırlanır və bunun reallaşdırılması əməli-təqvim-qrafik üzrə həyata keçirilir.
- **Müəssisədaxili nəqliyyat və rabitə infrastrukturu bölmələrinin işinin səmərəli idarə edilməsinə nəzarətin təşkili və icranın yoxlanılması.** Göstərilən prinsiplər əsas götürülməklə rabitə sisteminin hərtərəfl fəaliyyəti cari illik biznes-planda əks etdirlməlidir. Bazar iqtisadiyyatı şəraitində rabitə sisteminin bölmələrinin cari (illik) biznes-planının əsas göstəricləri mənfəətlilik meyarı ilə planlaşdırılmalı, uçota alınmalı və müvafiq normativ göstəricilərlə müqayisəli təhlil edilməlidir. Bu təhlilin ümumləşdirilməsi və nəticələri əsasında rabitə sisteminin işinin səmərəlilyinin yüksəldilməsi yolları, istqamətləri, mənbələri və ehtiyatları müəyyən edilməlidir. Rabitə sisteminin işinin səmərəliliyinin yüksəldilməsi mənbələri və ehtiyatları əsasında həmin təsərrüfatların xidmətlərinin mənfəətlik səviyyəsinin yüksəldilməsinə nail olmaq məqsədilə kompleks tədbirlər planı işlənməli və əməli-təqvim plan-qrafiklər üzrə həyata keçirlməlidir.

Yuxarıdakı prinsipləri nəzərə alaraq rabitə sistemində cari və strateji biznes-planı işlənib hazırlanarkən həmin sistemin müəssisələrinin sərəncamında olan təbii, material-texniki, enerji, əmək, informasiya və maliyyə resurslarının biznes-plana müvafiq istifadəsinin əsas göstəriciləri aşağıdakı metodika üzrə hesablanmalı, uçota alınmalı və müqayisəli təhlil edilərək qiymətləndirilməlidir.

1. Təbii resursların səmərəli istifadə göstəriciləri:a) təbii resursların gəlirlilik əmsalı: $Ə_{g}^{t.r}=\frac{\Sigma G_{ü}}{\Sigma X_{t.r}}$, burada $\Sigma G_{ü}$ - rabitə sisteminin illik gəlirinin ümumi məbləği, $\Sigma X_{t.r}$ - təbii resursların qorunması və istifadəsi ilə əlaqədar xərclərdir.

b) təbii resursların mənfəətlilik əmsalı: $Ə_{M}^{t.r}=\frac{\Sigma M_{b}}{\Sigma X_{t.r}}$, burada $\Sigma M_{b}$ - rabitə sisteminin illik balans mənfəətinin ümumi məbləğidir.

2. Material-texniki resursların səmərəli istifadə göstəriciləri:

a) material-texniki resursların gəlirlilik əmsalı: $Ə_{g}^{m.r}=\frac{\Sigma G_{ü}}{\Sigma X_{m.t.}}$, burada $\Sigma G_{ü}$ - rabitə sisteminin illik gəlirinin ümumi məbləği, $\Sigma X_{m.t.}$ - material-texniki resurslara çəkilən xərclərdir.

b) material-texniki resursların mənfəətlilik əmsalı: $Ə_{M}^{m.t.}=\frac{\Sigma M_{b}}{\Sigma X_{m.t.}}$

3. Rabitə sisteminin enerji resurslarının səmərəli istifadə göstəriciləri:

a) enerji resurslarının gəlirlilik əmsalı: $Ə_{G}^{en}=\frac{\Sigma G_{ü}}{\Sigma X_{en}}$, burada $\Sigma G_{ü}$ -müəsissənin illik gəlirinin ümumi məbləği, $\Sigma X_{en}$ -enerji resurslarına çəkilən xərclərdir.

b) enerji resurslarının mənfəətlilik əmsalı: $Ə_{M}^{en}=\frac{\Sigma M_{b}}{\Sigma X_{en}}$, burada $\Sigma M_{b}$ - ümumi mənfəətin illik məbləğidir.

4. Rabitə sisteminin əmək resurslarının səmərəli istifadə göstəriciləri:

a) əmək resurslarının gəlirlilik əmsalı: $Ə_{G}^{ə.r}=\frac{\Sigma G_{ü}}{\Sigma Ə_{hf}}$, burada $\Sigma G_{ü}$ - rabitə sisteminin illik gəlirinin ümumi məbləği, $\Sigma Ə_{hf}$ - əmək haqqı fondunun illik məbləğidir.

b) əmək resurslarının mənfəətlilik əmsalı:

$Ə_M^{ə.r} = \frac{\Sigma M_b}{\Sigma Ə_{hf}}$, burada $\Sigma M_b$ – balans mənfəətin illik məbləğidir.

5. Rabitə sisteminin maliyyə resurslarının səmərəli istifadə göstəriciləri:

a) uzun müddətli kreditin gəlirlilik əmsalı: $Ə_g^{u.k} = \frac{\Sigma G_a}{\Sigma UK}$, burada $\Sigma G_a$ -rabitə sisteminin təsərrüfatın illik gəlirinin ümumi məbləği, $\Sigma UK$ -uzun müddətli kreditin illik məbləğidir.

b) uzun müddətli kreditin mənfəətlilik əmsalı: $Ə_M^{u.k} = \frac{\Sigma M_b}{\Sigma UK}$

v) qısa müddətli kreditin gəlirlilik əmsalı: $Ə_g^{q.k} = \frac{\Sigma G_a}{\Sigma QK}$, burada $\Sigma G_a$ - rabitə sisteminin təsərrüfatın illik gəlirinin ümumi məbləği, $\Sigma QK$ - qısa müddətli kreditin illik məbləğidir.

d) qısa müddətli kreditin mənfəətlilik əmsalı: $Ə_M^{q.k} = \frac{\Sigma M_b}{\Sigma QK}$.

## ƏDƏBİYYAT


1. Cümşüdov S.Q. Xidmət sahələrinin sosial-iqtisadi inkişafının dövlət tənzimlənməsi. Dövlət idarəçiliyi jurnalı. №1(9), Bakı, "Çaşıoğlu", 2005, səh. 96-104.
2. Cümşüdov S.Q. Azərbaycanda "Elektron hökümətin formalaşmasının metodoloji prinsipləri. Elektron hökümət Azərbaycanda". Beynəlxalq konfransın məruzə materialları. AzTU, Bakı 26-28 aprel, 2010, səh. 157-160.
3. S.Q.Cümşüdov. Korporativ idarəetmə. Bakı, "Təhsil" 2009, 206 s.


**MƏMMƏDOVA G.V.**

### Rabitə sistemində resirslarin səmərəli istifadəsinin planlaşdirilmasi və qiymətləndirilməsi

## XÜLASƏ


Məqalədə dinamik inkişafda olan Respublikamızın rabitə sistemində resursların səmərəli istifadəsinin planlaşdırılması məsələlərinə baxılmışdır. Burada, resursların səmərəli istifadəsini xarakterizə edən göstəricilər gəlirlilik və mənfəətlillik meyarı ilə araşdırılmışdır.


***Açar şözlər:*** *rabitə, biznes, gəlirlilik, mənfəətlilik, ekoloji tarazlıq, əmək, maliyyə, nəzarət*

**Мамедова Г.В.**

### Планирование и оценка эффективного использования ресурсов в системе связи

## РЕЗЮМЕ


В статье рассмотрены вопросы планирования и оценка эффективного использования ресурсов в системе связи. При этом плановые, учетные и нормативные показатели использования ресурсов оценивается с учетом их доходности и прибыльности.


***Ключевые слова:*** *связь, бизнес, доходность, прибыльность, экологическая равновесия, трудовые, финансовые и контроль.*

**Mammadova G.V.**

### Planning and evaluation of effective use resources in the communication system

## SUMMARY


The article deals with the issues of planning and evaluation of the efficient use of resources in the communication system. At the same time, planned, accounting and standard indicators of the use of resources are evaluated taking into account their profitability and profitability.


***Key words:*** *communication, business, profitability, profitability, ecological equilibrium, labor, financial and control.*

*Məqaləyə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, i.e.d., S.Q. Cümşüdov rəy vermişdir.*